*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 3-10*

**MƏRYƏM ƏSƏDOVA NAMİQ**
**AMEA, Nəsimi adına Dilçilik İnstitutu**
**Bakı şəhəri, H. Cavid prospekti,115**
**e-mail: maryam.asadova29@gmail.com**

# FELİ XƏBƏRƏ MALİK OLAN CÜMLƏLƏRDƏ ASPEKTUALLIQ

**Xülasə**

Feil əsas nitq hissəsi kimi unikal xüsusiyyətlərə malikdir. Feil müəyyən morfoloji funksiyalar vasitəsiylə məlumatı çatdırır, bununla yanaşı, bəzi sintaktik funksiyaları ilə cümlədə zəruri elementləri bir növ təyin edir. Dilçiliyin funksional sahəsinin predmeti kimi nitq hissələri bölməsinin əsas komponenti olan feil aspektuallıq anlayışı ilə xarakterizə olunur. Feil və feilin tərz kateqoriyaları aspektuallıq vasitəsilə geniş təsir imkanlarına yiyələnir. Aspektuallıq, bir qayda olaraq unikal xüsusiyyətlərə malik olub zaman anlayışı ilə də sıx əlaqədardır. Aspektuallıq, ənənəvi olaraq tarixən mövcud olan, hər dildə fərqli şəkildə ifadə olunan anlayışdır. Aspektuallıq praqmatik kateqoriya qismində də çıxış edir, başqa sözlə təsvir etsək, praktikada xüsusi olaraq istifadəsi kimi başa düşülür. Funksional dilçilik qrammatikası və praqmatikanın mövzusu olan aspektuallıq əksər dillərdə felin tərzini tənzimləyir. Əksər dillərdə isə aspektual kateqoriya zaman formalarından biri kimi təqdim olunur. Dilçiliyin müasir inkişaf mərhələsi aspektual kateqoriyaları və onun dəqiq sərhədlərini müəyyən etməklə məşğul olur. Əksər hallarda aspektuallıq zamanın daxilində öyrənilib tədqiq edilir. Bu zaman aspektuallıq anlayışı hərəkət axınının xüsusiyyətlərini təcəssüm etdirir. Tarixən aspektuallığın öyrənilməsi praqmatik kateqoriyaya aid olaraq praktikada spesifik istifadəni təmin etmişdir. Qrammatika və praqmatika bölmələrinin mövzusu olan aspektuallıq funksional dilçilik, anlayışı olaraq digər sahələrdə də təmsil olunur.

**Açar sözlər:** aspektuallıq, feil, morfoloji kateqoriya, feili xəbər, sintaktik kateqoriya feillərdə tərz kateqoriyası

## АСПЕКТУАЛЬНОСТЬ В ПРЕДЛОЖЕНИЯХ С ГЛАГОЛОМ

**РЕЗЮМЕ**

Как основная часть речи глагол характеризуется уникальными особенностями. Глагол включает в себя определенные морфологические функции по передаче информации и некоторые синтаксические функции по определению необходимых элементов в предложении. Глагол, являющийся основным компонентом деления частей речи, являющегося функциональной областью языкознания, определяется понятием аспектуальности. Категории глагола и способов глагольного действия глагола приобретают широкий

диапазон влияния посредством аспектуальности. Аспектуальность, как правило, обладает уникальными свойствами и тесно связана с понятием времени. Аспектуальность – традиционно исторически существующее понятие, выраженное в каждом языке по-разному. Аспектуальность является прагматическим исследованием категории и специально предусмотрено ее использование на практике. Аспектуальность, предмет разделов грамматики и прагматики функциональной лингвистики, также управляет временем глагола в большинстве языков. Видовая категория представлена как одна из временных форм. Видовые категории языкознания на современном этапе развития определяют его точные границы. В большинстве случаев аспектуальность приобретается со временем. Эта концепция воплощает в себе особенности транспортного потока. Исторически изучение аспектуальности обеспечило конкретное применение на практике в качестве прагматической категории. Аспектуальность - предмет разделов грамматики и прагматики функциональной лингвистики - узко представлена в большинстве языков.

**Ключевые слова:** аспектуальность, глагол, глагольное сказуемое, категория способов действия в глаголах

## ASPECTUALITY IN SENTENCES WITH VERBAL PREDICATES
## SUMMARY

As the main part of speech the verb is characterized by unique features. The verb includes certain morphological functions to convey information and some syntactic functions to determine the necessary elements in the sentence . The verb, which is the main component of the division of parts of speech, which is a functional area of linguistics, is defined by the concept of aspectuality. Verbs and verbal moods categories gain real influence through aspectuality. Aspectuality, as a rule, has unique properties and is closely related to the concept of time. Aspectuality is a traditionally historically existing concept, expressed differently in each language. Aspectuality is a pragmatic category study and its use in practice is specifically provided. Aspectuality, the subject of the grammar and pragmatics sections of functional linguistics, also governs verb tense in most languages. The aspectual category is presented as one of the tense forms. Aspectual categories of linguistics at the modern stage of development determine its exact boundaries. In most cases, aspectuality is learned over time. This concept embodies the characteristics of the traffic flow. Historically, the study of aspectuality has provided a specific use in practice as a pragmatic category. Aspectuality, the subject of grammar and pragmatics sections, functional linguistics, is narrowly represented in most languages.

**Key words:** aspectuality, verb, verbal predicate, category of modes in verbs

Dilin həm təcrübi, həm də nəzəri baxımdan tədqiqi böyük əhəmiyyət kəsb edir. Dilçiliyə dair bir sıra mürəkkəb xüsusiyyətlər var. Onları yalnız qarşılıqlı şəkildə tədqiq etdikdə istənilən nəticə əldə etmək mümkündür. Belə sahələrə misal kimi modallıq, temporallıq, aspektuallıq və s. göstərə bilərik. Tədqiqatlar tarixi boyunca, bir çox tədqiqatçının diqqətini cəlb edən aspektuallıq dilçilik tarixinin ən qədim sahələrindən biri olub nitq hissələrinin feil növü haqqında məsələlərə məntiqi və məqsədli yanaşmanı özündə ehtiva edir. Aspektuallıq, müvafiq mövqe mahiyyəti daşıdığından feil növlərinin kateqoriyasını və mövcud semantik əlaqələri öyrənir. Aspektuallıq həmçinin modallığı da ehtiva etdiyindən nitqin ümumi məzmununun xarakterini müəyyənləşdirir. Aspektuallıq fellərin təhlilini praqmatik yolla izah edir. Aspektuallıq, bitkin fikir ifadə edən fellərlə işlənir, prosesin davamını ifadə edən feillərlə isə təfsir olunur. Belə olan halda fellərdən sonra xətti ardıcıllıqla ifadə olunan fikir işlənə bilər. Semantik baxımdan bir-birinə yaxın olan əsas fellərin arasındakı ziddiyyətin təhlili aspektuallığın əsas obyektini təşkil edir.

Rus filoloq A.V.Bondarko aspektuallığı bu cür şərh etmişdir. "*Aspektuallıq – hərəkətin zamanla necə axmasını və paylanmasını səciyyələndirən semantik kateqorik bir əlamətdir.*" Aspektuallıq həm ierarxik təşkil edilən tərkib kimi, həm də, bu tərkib hissəsini təşkil edən bütün komponentlərin qarşılıqlı təsiri kimi bir çox dilçilər tərəfindən tədqiq edilmişdir. Bu mövzu haqqında aparılan genişmiqyaslı təqdiqatların əksəriyyəti rus dilçilərinə aiddir. Belə ki, A.V.Bondarko, S.Y. Maslova, M.A.Şelyakin, V.S.Xrakovskiy və başqalarınının bu istiqamətdəki tədqiqatları, yanaşmaları böyük maraq doğurur. İngilis dilçilərindən B.Comrie, R.I.Binnick, H.J.Verkuyl və s.; italyan dilçilərindən P.M.Bertinetto, M.Berretta, F. Rosi və digərləri bu mövzuya diqqət ayırmışlar.

Aspektuallığa tərif verən fransız linqvisti olan E.Coseriu "*aspekt hadisələrin gedişatını anlama üsullarıdır.*" fikrinə istinadən B.Comrie deyilənləri ümumiləşdirərək aspektə qısaca bu cür şərh vermişdir: "*Aspekt hansısa bir hadisənin, situasiyanın daxili temporal ardıcıllığını görə bilmək üçün müxtəlif baxış üsuludur.*" zaman vəziyyətin temporal yerləşməsini başqa bir temporal istinad noqtəsiylə(məsələn söyləm anı) əlaqəli olduğu halda, aspekt isə hadisənin özünün struktur xüsusiyyətləri ilə əlaqəlidir.

Aspektuallıq müasir dil üslubunun formalaşmasında əsas rol oynayır və özünəməxsus daxili qaydalara malikdir. Morfoloji baxımdan diqqət yetirsək, məlum olur ki, dilin lüğət tərkibində ən geniş işləklik imkanlarına malik olan nitq hissəsi feildir [4. s. 30]. Feil həm ədəbi, həm də məişət üslubunda istifadə olunur. Feil, nitqə emosional-ekspressiv məna aşılayır və ona sintaktik baxımdan səciyyəvi xüsusiyyət qazandırır. Feil o qədər geniş bir sahəni əhatə edir ki, həm qədim qrammatiklər, həm də müasir dilçilər bununla bağlı müxtəlif genişmiqyaslı tədqiqatlar aparıb müxtəlif cür tərif vermişlər. Onlar arasında bəzi geniş yayılmış müddəalara nəzər salaq. İtalyan dilçilərindən V.Nannucci feili şərh edərkən, bu cür izah edib. "*Hind- Avropa*

*dillərində feil qrammatik vasitələrlə və bəzi analoji üsullarla zaman, aspekt, tərz, şəxs, növ və kəmiyyət bildirir.*" Bu proses aşağıdakı yollarla baş verir;

1. müəyyən suffikslərin köməyi ilə və ya feil kökünün son saitinin dəyişmə yolu ilə. Məsələn; "andare" (getmək) feilinin indiki zamanda şəxsə görə təsriflənməsi buna bariz nümunədir. Belə ki, feil kökü dəyişikliyə uğrayaraq, -*vado, vai, va*,... kimi şəxsə görə dəyişir.

2. feilin fleksiyaya uğraması və təsriflənməsi yolu ilə. Məsələn: "scrivere" (yazmaq) feili -*loro scrivono* formasında zaman, şəxs, kəmiyyət, növ ifadə edir. [8]

Feil əsas nitq hissəsi kimi dil üslubunu zənginləşdirir və fərdiliyi təmin edir. Kateqoriya baxımından feil morfologiyanın çoxmənalılığını və frazeoloji birləşmələrin yaranmasını tənzimləyir. Feil, əsasən bir fikrin digər şəxsə bitmiş mənada çatdırılmasını təmin edərək cümlənin tamamlanmasını reallaşdırır. Əsas nitq hissəsi kimi feilin səciyyəvi xüsusiyyətlərini daha aydın şəkildə müəyyən etmək üçün dilçiliyin digər sahələri ilə diferensial şəkildə tədqiq etmək tələb olunur. Hərəkət bildirən nitq hissəsi kimi feilin qanunauyğunluqları və lüğəvi mənaları aspektuallıq vasitəsi ilə çoxkateqoriyalı kompleks olaraq təhlil edilir. Q.Kazımov qeyd edir ki, "*Cümlədə fikir predmetinin çatdırılması funksiyasını xəbər icra edir. Xəbər nitq predmetini səciyyələndirərək onun hərəkəti, işi və s. barədə informasiya əldə etməyə şərait yaradır. İfadə etdiyi məlumat çox vaxt zaman və şəxslə əlaqəli olub, modal münasibət də əks etdirir."* Q.Ş.Kazımov onu da vurğulayır ki, xəbərin əsas işini nitq predmetinin modal-zaman xarakteristikasını vermək təşkil edir. Hərəkət feilin təsrif formaları ilə və müəyyən feli birləşmələrlə ifadə olunur. Müvafiq təsriflənmə formaları ilə daha konkret təsvir etsək, əmr, xəbər, arzu, lazım, vacib, şərt və frazeoloji birləşmələrlə işlənən xəbər növü vardır ki, ona feili xəbər deyilir [2. s. 116].

Feili xəbər cümlə hüdudları çərçivəsində hərəkət bildirir. Aparılan tədqiqatlara nəzər saldıqda məlum olur ki, feil nitq hissəsi olaraq cümlənin əsas tərkibini təşkil edən parametrləri konstruktiv olaraq əlaqələndirdiyi kimi feili xəbər də, cümlədə bir-biri ilə fərqli məna kəsb edən iki fikir olduqda oxşar meyillərin təzahürü şərtlənir. Bundan əlavə, predikatlar (dilçilikdə feili xəbər həm də bu cür adlanır) həmişə məntiqi-semantik funksiyanı yerinə yetirir və digər cümlə üzvü olan tamamlığı seçib idarə edən və cümlə ilə rabitəsini təmin edən element kimi təsvir edilir. Onlar həm də aktantlara (Struktur dilçilikdə feil və eləcə də, tamamlıq ilə feili birləşmələrin əmələ gətirdiyi tərkibdə hərəkəti icra edən cümlə üzvü aktant adlanır. Ənənəvi qrammatikada bu mübtədadır.) tematik rolların təyin edilməsində iştirak edir; başqa sözlə, təsvir etmək lazım gələrsə, predikatlar vasitəsiylə təsvir edilən məzmun şəxs, zaman, aspekt və modallıq kimi qrammatik vasitələrlə ifadə olunur və kommunikativ akta uyğun olaraq zaman - məkan hüdüdlarını icra edir [7].

Hər hansı bir hadisənin müəyyən edilməmiş bir müddət ərzində təkrarlanmasının elmi dildə təfsiri də feil sayəsində mümkün olur. Aspektuallıq

faktoru bu və ya digər şəkildə türk dillərində də vardır. Ancaq bir çox dünya dillərində olduğu kimi ümumtürk dilində aspektullığın konkret bir kateqoriya olaraq morfoloji göstəriciləri yoxdur [5. s.21]. Yəni ilk növbədə, müəyyənləşdirilən aspektlər aspektuallıq, zaman, səbəbiyyət və s. semantik kateqoriyalara görə bir-birindən fərqləndirilir. Daha sonra isə, tədqiq edilən obyekt olan aspektlər kateqoriya qurucu əlamətlərə görə müəyyən olunur. Bunlar qrammatik, leksik və leksikoqrafik xarakterli təsnifləndirici, şəkilləndirici sözdüzəltmə morfoloji əlamətləri və felin növ şəkilçiləri və ya hal, felin zaman, şəkil sözdəyişdirici şəkilçilərinə və s. görə bir-birindən ayrılmalıdır [5. s.24].

Aspektuallıq feil ilə ifadə olunan xəbərin semantik subyektlərini müəyyənləşdirir. Feil, cümlənin konseptuallaşdırma üsulu ilə təhlilinə şərait yaradır. Yəni, hadisələrin danışan tərəfdən izahı təklif olunur. Cümlənin aspektual baxımdan təhlili də bütün nominal arqumentlərin səbəb-nəticə əlaqələrini tənzimləyir. Aspektuallıq baxımından məlumatların təhlili daha çox konstruktiv səciyyəyə malik olur. Feilin xəbər və ya hərəkət baxımından təhlili bu mərhələləri əhatə edir: *başlanğıc, davam, sonlandırma*. Aspektuallığı xarakterizə edən bu izaha tərz kateqoriyasını şamil edə bilərik. Başqa sözlə desək, bu və ya digər dildə aspektuallıq tərz kateqoriyasını əhatə edib onu dərindən öyrənən bir sahədir. Bununla bağlı olaraq, Q. Kazımovun lakonik tərifinə nəzər yetirək: "*.... tərz kateqoriyası hərəkətin kəmiyyət şəklinin dəyişməsini göstərən bir kateqoriyadır. Hal- hərəkətin icra olunub qurtarması yaxud olunmaması, bitib- bitməməsi, başlanıb- başlanmaması tərz kateqoriyasını təşkil edir. Tərz mənası cümlədə - şəxsli feildə ortaqlı şəkilçi və köməkçi sözlərlə ifadə olunur."*[3. s.211] Deyilənlərin daha aydın olması üçün Q.Paşayevanın "Ana" şeiri üzərində fikrimizi aşağıdakı kimi izah edək:

............
Bu gecə
**Səsin gəlirdi** qulaqlarıma –
Mənə nağıl **danışırdın**,
Xeyirin həmişə Şərə qalib gələcəyini **deyirdin**.
Mən düz 36 il Xeyirin qələbəsini **gözlədim**,
Şər qalib gələndə **ağladım**, ana!
Sənin nağılların belə **qurtarmırdı** axı...
Səni **dinləyirdim**, ana,
"Biri vardı, biri yox" **deyirdin**.

Şeirdə feilin tərz kateqoriyasına uyğun mənalı sözləri müvafiq olaraq bu cür xarakterizə edə bilərik; ***səsin gəlirdi, danışırdın, qurtarmırdı, dinləyirdim, deyirdin*** feilləri hərəkətin davamlı, təkrarlanan olmasını bildirir; ***gözlədim, ağladım*** hərəkətin icra olunub tamamlanması mənasını ifadə edir.

.....

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 3-10*

Məni uşaqlığıma **apar**, ana,
Sonu xoşbəxtliklə qurtaran nağıllar **danış**.

Bu bənddəki ***apar, danış*** feillərində müvafiq olaraq hərəkətin fiziki icrasına hələ başlanmaması ifadə olunur.

Feil hal-hərəkətin icra olunmasını sona qədər izləyir və cümlənin morfoloji üsulunu təyin edir. Bu baxımdan feilin müvafiq tərzi və ya sintaktik kateqoriyası məsələsi diqqəti cəlb edir. Feilin tərz kataqoriyası tərz şəkilçilərinin köməyilə tənzimlənir. Qeyd edək ki, feilin tərz kateqoriyası əsasən morfoloji və sintaktik olmaqla iki üsulla əmələ gəlir [5. s.116]. Morfoloji üsulla tərz mənasının yaranması üçün tərz şəkilçiləri adlandırılan xüsusi şəkilçilərdən və zaman şəkilçilərindən istifadə olunur. Zaman şəkilçiləri ilə ifadə olunan işi icra olunub qurtarmasına və bitib-bitməməsinə görə iki qrupa ayırmaq olar:

1. işin icra olunub bitdiyini göstərənlər;
2. işin bitmədiyini – davam etməkdə olduğunu və ya başlanmadığını göstərənlər.

Birinci qrup işin icra olunub bitdiyini göstərən tərz, bitmiş tərz adlanır: *baxdım, baxdı, baxmsan, baxmışıq, baxıbsan, baxmışdınız, baxmışmış* və s. İkinci qrup işin icrasının başlandığını, lakin bitmədiyini, davam etməkdə olduğunu və ya icrasına başlanmadığını göstərən tərz, bitməmiş tərz adlanır: *baxıram, baxırmışsan, baxardım, baxarmışsan, baxmaqdayam, baxmaqdayıq baxmaqda idiniz, baxmaqda imişsən; baxacağam, baxarsan, baxsın, baxmalıdır, baxasıdır, baxa, baxsalar* və s. Bir sıra şəkilçilər hərəkətin kəmiyyət şəklinin dəyişməsinə səbəb olur və hərəkətin sürəkliliyini, təkrar-təkrar və davamlı şəkildə icrasını bildirir. Bu şəkilçilər bir neçə sözlə, bəzən bir-iki feillə işlənir. Bunlar mahiyyət etibarı ilə sözdüzəldici şəkilçilərdir:

-ala, -ələ şəkilçisi: *eşmək – eşələmək, ovmaq – ovalamaq* və s.

-ın, -in, -un, -ün şəkilçisi: *yaymaq – yayınmaq, döymək – döyünmək, çırpmaq – çırpınmaq, demək – deyinmək* və s.

-ıx, -ik, -ux, -ük şəkilçisi: *durmaq – duruxmaq*
*döymək – döyükmək*, *keyimək – keyikmək*, *bezmək – bezikmək* və s.

-la, -lə şəkilçisi: *tapdamaq – tapdalamaq, çalxamaq – çalxalamaq* və s.

-ış, -iş şəkilçisi: *yazmaq – yazışmaq* və s.

-ı, -i şəkilçisi: *qazmaq – qazımaq, sürmək – sürümək* və s.

Sayca az olan bu şəkilçiləri qəbul edən sözlərdə də işin icra olunub qurtarması, bitib bitməməsi zaman şəkilçiləri ilə müəyyənləşir. Məsələn: qovladı – bitmiş tərz; qovlayır – bitməmiş tərz.

Sintaktik üsulla tərz mənasının yaranması üçün analitik feillərdən istifadə edilir. *-ıb, - ib, -ub, -üb; -araq, -ərək; - a-a, -ə-ə* şəkilçili feli bağlama şəxsli feillə birləşərək analitik forma əmələ gətirir [3. s.214]. Məsələn: duruxub durmaq; ağlayaraq gözləmək; baxa-baxa qalmaq və s.

Aspektuallıq və ya felin tərz kateqoriyası faktına və onun dilin qrammatik səviyyəsində ifadəsinə bağlı olaraq əldə edilən birinci nəticə türkoloji dilçilikdə dövrünə görə o zamanlar yeni bir elmi-metodik kəşf səciyyəsi daşıyırdı. İkinci nəticə isə türkoloji dilçilikdə daha "Altay dilinin qrammatikası" əsərindən etibarən mövcud idi. Beləliklə, 1950-ci illərin sonu və 1960-cı illərdən etibarən sözügedən fenomen, yuxarıda da göstərildiyi kimi, artıq sadəcə qrammatika səviyyəsində deyil, öncə leksik və sintaktik olaraq, günümüzdə isə kontekstual və konseptual baxımlardan da işıqlandırılmaqdadır.

Feil morfoloji, xəbər isə sintaktik kateqoriyadır. Xəbərin ifadə etdiyi predikativlik onun daha çox morfoloji analoqu olan feil vasitəsiylə baş tutur. Müxtəlifsistemli dillərdə feili xəbər quruluşuna görə sadə (italyan dili - *io guardo,* Azərbaycan dili - *mən baxıram,* ingilis dili - *I watch* və s.) və ya mürəkkəb/tərkibi(*guardando dormire*, *baxa-baxa yatmaq,watching sleep* ) olur. Morfoloji cəhətdən sadə feillər bitmiş və bitməmiş tərzdə verilə bilər. Ümumiyyətlə, dildə mürəkkəb feilin olub olmaması ilə bağlı çoxsaylı fikir ayrılıqları bu gün də qalmaqdadır. Buna istinadən, əksər dilçilər dolayısı ilə xəbərin də quruluşca mürəkkəb olması ilə bağlı ortaq qərara gəlməyiblər. Bu səbəbdən də, digər ifadə vasitələrindən fərqli olaraq, *hazırlaşmağa başladı., yeyə-yeyə baxdı* kimi feili xəbər olan cümlələrdəki feili birləşmələri müvafiq olaraq quruluşca tərkibi hesab etməyi məqbul hal saymaq olar. Dildə quruluşca mürəkkəb hesab edilən feili xəbəri morfoloji cəhətdən təhlil etsək müşahidə edərik ki, onun elementlərindən biri asılı olub semantik cəhətdən tərz bildirən sözlərdən ibarət olur. Məsələn: *oxuyub bitirməlidir, danışa-danışa rahatladım.* Morfoloji cəhətdən bu nümunədəki feili xəbərləri təhlil edək.

**əsas tərəf** : bitirməlidir, rahatladım
**asılı tərəf**: oxuyub, danışa-danışa

Başlıca leksik məna əsas tərəfdə olur. Başqa cür belə izah edə bilərik. Əsas tərəfdəki feillər müvafiq olaraq feilin zaman, şəkil, şəxs əlamətlərini qəbul edib dəyişir: "*bitirməlidir*" 3-cü şəxsin təkində və feilin vacib şəklində ; "*rahatladım"* 1-ci şəxsin təkində feilin xəbər şəklində və keçmiş zamanda işlənib. İkinci yaxud asılı tərəfdəki feillər isə əsas tərəfdəki feilləri tərz cəhətdən tamamlayır: *oxuyub*, *danışa-danışa* feili bağlama qismində çıxış edərək predikativ konstruksiyanın asılı tərəfində dayanır. [4. s.174]

İtalyan dilində feili xəbərlərdə aspektuallığın ifadə vasitələri Azərbaycan dilindəkindən qismən fərqlidir. Hind-Avropa dil ailəsində daxil olan bir dil olan italyan dilində aspektuallığın ifadə vasitələri kimi *stare per +məsdər* (nəsə etməyə başlamaq, hazırlaşmaq), *smettere di* +məsdər (nəyisə etməyi dayandırmaq) və s.kimi feli birləşmələr iştirak edir. Məsələn:

- *Lui sta per uscire*. – O çıxmaq üzrədir.(yəni o, çıxmağa hazırlaşır. )

- *Lucia e Ugo hanno smesso di fumare.* – Luçia və Uqo siqaret çəkməyi dayandırıb(yəni tərgizib)

Burada altından xətt çəkilmiş feili xəbərlərdir və əsas və köməkçi olmaqla iki hissədən ibarətdir. Köməkçi hissə xəbərin qrammatik mənasını təyin etdiyi halda, əsas leksik mənanı bildirən məsdər öz növbəsində hərəkətin modallıq/tərz, zaman və aspektuallıqla bağlı xüsusiyyətlərini əks etdirir. [7]

Rus dilçiliyində də tərz kateqoriyası böyük əhəmiyyətə malikdir. Rus dilində tərz kateqoriyası feilin forma və əlamətləri ilə əlaqəli olub nitq vərdişlərinin inkişafında xüsusi rola malikdir. Əgər hərəkət daxili həddi, hüdudları çərçivəsində qurtararsa, tamamlanarsa bu zaman feil bitmiş tərzi; hərəkətin son həddini, yaxud nətcəsini deyil, onun davamlı, təkrarlanan olmasını bildirirsə bu zaman feil bitməmiş tərzi ifadə edir. Rus dilçiliyində bitmiş tərzdə ifadə olunan feillər ancaq keçmiş və sadə gələcək zamanda işlənə bilir. Bitməmiş tərz ilə ifadə olunan feillər isə hər üç zaman formasında rast gəlinir. Bir qayda olaraq, bu iki tərz aşağıdakı yollarla əmələ gəlir:

1. Müəyyən suffikslər vasitəsiylə ; обуть- обувать.
2. Müəyyən önşəkilçilər vasitəsiylə ; писать- подписать
3. Bitmiş tərz feillər önlüklərlə, önşəkilçilərlə işlənir və əsasında ну suffiksi olan fellər olur. Önlüksüz, önşəkilçisiz işlənən və ну əsasında suffiksi olan yerdə qalan fellər bəzən bitmiş və bəzən də bitməmiş tərzdə işlədilir
4. Eyni mənalı feillərin hər iki tərzi fərqli sözlərlə ifadə olunur;
5. Konteksdən asılı olaraq heç bir formal göstərcisi olmadan bəzi feillər hər iki tərzdə işlənə bilir.
6. İfadə etdiyi mənadan asılı olaraq bəzi feillər yalnız və yalnız bir tərzdə ifadə olunur. Məsələn: *ринуться*(atılmaq) mənasında həmişə bitmiş tərzdə, присутствовать (hazır olmaq) kimi feillər həmişə bitməmiş tərzdə verilməlidir [8].

Aspektuallığın feilin tərz kateqoriyası və semantik tərzin müəyyən edilməsi ilə bağlı olduğunu xatırlatmaq vacibdir. Hərəkətin tərz kateqoriyası dedikdə, feilin ifadə etdiyi işin icra olunub qurtarıb qurtarmaması, davamlılığı, işin icrasına başlanıb başlanmadığı, birdəfəliliyi, təkrarlanıb təkrarlanması və s. mənalar ifadə etdiyini nəzərə alınır. Danışanın söyləmin məzmununa münasibətini xarakterizə etdiyi üçün aspektuallıq bu baxımdan modallıq kateqoriyası ilə oxşardır [1. s. 376].

Predikat cümlənin struktur və semantik mərkəzidir. Ənənəvi qrammatikada feili xəbər modallıq və aspektuallıq ifadə edən element qismində çıxış edir. Xəbər deyilən və ya təsdiq edilən əsas cümlə üzvü olub yüksək semantik sıxlığa malik element kimi xarakterizə olunur. Onu cümlədən çıxardıqda, cümlənin nəinki qrammatik norması pozular, həm də cümlə özünün informativ funksiyasını itirər. Feilə və feili xəbərə məxsus yaxud onunla sıx əlaqədar cümlələrin leksik, morfoloji

və sintaktik müstəvidəki əlamətləri aspektuallıq baxımından təhlil oluna bilər. Belə ki, feili xəbərdə aspektuallıq cümlədə yeni mənaların yüklənməsi nəticəsində müvafiq kateqoriya səviyyəsi əldə edir. Cümlədə sözlərin dəyişdirilməsi müvafiq formaların yaranmasını şərtləndirir və aspektuallıq koqnitiv olaraq yeni bir tərz kateqoriyası səviyyəsini əldə edir. Qrammatik kateqoriyaların ifadə olunmasında funksional baza təşkil edən feil xəbərin müvafiq olaraq təsriflənməsinə xidmət edir.

## Ədəbiyyat siyahısı


1. Abbasov, İ.Ə., Kazımbəy M.A. Türk-tatar dilinin ümumi qrammatikası (Azərbaycan dilinin ilk elmi qrammatikası). Bakı: Zərdabi LTD MMC, – 2017 – 1007 s.
2. Abdullayev Ə., Seyidov Y., Ağamalı H., Müasir Azərbaycan dili,IV hissə. Sintaksis. Bakı, "Şərq-Qərb", 2007, 424 s
3. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, «Nurlan», 2010, 400 s
4. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I cild . Bakı, 2019. 464 s.
5. Musayev M.M. Türkoloji dilçilik. Bakı, 2012. 441 s.


## İnternet saytları


6. https://digilib.phil.muni.cz/sites/default/files/pdf/114837.pdf
7. https://www.treccani.it/vocabolario/verbo/
8. https://kayzen.az/blog/rus-dili/151/t%C9%99rz-kateqoriyas%C4%B1.html#cut


**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, Günel Bayramova**